# ÜZEYİR HACIBƏYOV VƏ İKİNCİ DÜNYA MÜHARİBƏSİ

Belə bir dövrdə dahi sənətkarımız Üzeyir Hacıbəyovun sədrliyi ilə xüsusi komissiya fəaliyyətə başladı, hərbi-hamilik işləri üzrə briqadalar təşkil edildi, ştab yaradıldı.

Bu komissiyanın göstərişi ilə hər yerdə yalnız şən, vətənpərvərlik və səfərbəredici əhval-ruhiyyə yaradan musiqilər səsləndirməyə icazə verilir, xalqımızı və döyüşçülərimizi qəhrəmanlığa, qələbəyə sövq edilirdilər.

Müharibənin ilk günlərindən Ü.Hacıbəyov Azərbaycan Bəstəkarlar İttifaqının sədri kimi bütün bəstəkarları vətənpərvərliyi tərənnüm edən əsərlər yazmağa çağırmışdır. O, həm də Yazıçılar İttifaqına, onun rəhbəri Səməd Vurğuna müraciət edərək müdafiə mövzusunda mübariz mahnılar yaratmaq üçün mətnlər yazılmasını xahiş etmişdir.

Üzeyir Hacıbəyovun ev-muzeyində maraqlı bir sənəd saxlanılır. 14 sentyabr 1942-ci ildə M.Maqomayev adına Dövlət Filarmoniyasında keçirilən "Vətən müharibəsi dövründə Azərbaycan ədəbiyyatı"na həsr edilmiş böyük ədəbi-bədii gecənin proqramında yazılmışdır ki, gecədə məşhur Azərbaycan yazıçılarından Məmməd Səid Ordubadi, Səməd Vurğun, Süleyman Rüstəm, Rəsul Rza, Məmməd Rahim, Osman Sarıvəlli, Zeynal Xəlil, Rəfibəyli Nigar, Əhməd Cəmil və b. iştirak edəcəklər.

Gecə hörmətli kompozitorumuz Üzeyir Hacıbəyovun giriş sözü ilə başlanacaqdır.

Bədii hissədə məşhur Azərbaycan artistlərindən Bülbül, Hacıbababəyov və başqaları iştirak edəcəklər.



***Müharibə başlayandan üç gün sonra Azərbaycan Dövlət Konservatoriyasının yeni tikilmiş binası qospitala çevrildi. Konservatoriyanın bir çox tələbələri, müəllimləri, bəstəkarlar və ifaçılar cəbhəyə yola düşdülər. Qalanlar isə arxa cəbhədə çalışaraq ön cəbhəyə yardım edirdilər. Onlara hərbi mütəxəssislər təlimlər keçir, xüsusi dəstələr hazırlayırdılar.***

Müharibədən əvvəl də, müharibə başlandıqdan sonra da Üzeyir Hacıbəyov tez-tez hərbi hissələrdə olur, əsgərlərlə, döyüşçülərlə görüşür, onların işi, həyatı ilə maraqlanırdı. Muzeyimizdə 1939-cu ildə Qusarda hərbi hissələrin birində olarkən çəkilmiş foto-şəkil saxlanılır. O zaman Üzeyir bəy, gənc bəstəkar olan Soltan Hacıbəyovu və A.Zeynallı adına orta ixtisas musiqi məktəbinin direktoru vəzifəsində çalışan Sirac Məmmədovu da özü ilə oraya aparmışdır. Hərbi düşərgədə Ü.Hacıbəyov əsgərlərin, zabitlərin qonağı olmuş, səmimi söhbətlər etmiş, onlara xeyli azuqə aparmışdır. Xalq artisti professor S.Hacıbəyovun xatirələrinə görə hərbiçilər tərəfindən dahi sənətkarımız çox səmimi və mehribanlıqla qarşılanmış, Üzeyir Hacıbəyovla görüş toy-bayrama çevrilmiş, əsgər və zabitlərdə unudulmaz əhval-ruhiyyə yaratmışdır.

Olduqca xeyirxah, xalqını və Vətənini sevən dahi sənətkar tez-tez Azərbaycan Dövlət Konservatoriyasının binasında yerləşən hərbi qospitala gedər, oradakı yaralı döyüşçülərə baş çəkərdi. Hər dəfə də oraya gedəndə özü ilə çoxlu ərzaq, siqaret, palpaltar aparardı. 1941-ci ildə növbəti dəfə həmin qospitalda olarkən, Üzeyir bəylə yaralıların görüşü keçirildi. Görüş zamanı döyüşdə iki ağır yara almış Əs-





gərov soyadlı baş leytenant azərbaycanlı bir tibb bacısının şücaətindən ağız dolusu söhbət açdı. O, dedi ki, cəbhədəki döyüşlərin birində o, çiynindən və ayağından yaralanmışdı. Vəziyyəti ağır idi. Bu zaman tibb bacısı özünü yetirmiş, onu çiyninə alıb, sürünə-sürünə odun-alovun içindən çıxarmışdı. Zabit bildirmişdir ki, sağ qaldığı üçün 19 yaşlı şəfqət bacısına borcludur...

Qospitaldakı görüşdən qayıdan Üzeyir Hacıbəyov o söhbətdən çox mütəəssir olmuş, "Şəfqət bacısı" adlı mahnı yazmaq haqqında düşünməyə başlamışdır. Həmin gün axşam Üzeyir bəy böyük şair Səməd Vurğuna telefon açaraq əhvalatı danışmış və bu mahnının sözlərini yazmağı ona həvalə etmişdir. S.Vurğun məmnuniyyətlə razılıq vermiş, səhəri günü şair hazır mətn ilə bəstəkarın yanına gəlmişdir. İki gündən sonra isə məşhur "Şəfqət bacısı" mahnısı artıq hazır olmuşdur.

Vətənpərvərlik mövzusunda ilk əsəri Üzeyir Hacıbəyova görkəmli dramaturq Hüseyn Cavidin oğlu, 1942-ci ildə dünyasını dəyişmiş Ərtoğrul Cavid təqdim etmişdi. O, Nigar Rəfibəylinin sözlərinə yazdığı "Eşq olsun" mahnısını sevimli müəlliminə göstərmişdir. Dahi bəstəkar əsəri çox bəyəndiyini söyləyərək yüksək qiymətləndirmişdir. Ə.Caviddən sonra Ağabacı Rzayeva, Adilə Hüseynzadə, Şəfiqə Axundova, Soltan Hacıbəyov, Əşrəf Abbasov, Hacı Xanməmmədov, Süleyman Ələsgərov, Hacağa Nemətov və başqaları mahnılar və marşlar yazdılar. Bu hərbi-vətənpərvərlik mahnıları və marşları Ü.Hacıbəyovun təşəbbüsü ilə 1942-ci ildə ayrıca kitab şəklində nəşr edilmişdir.

Üzeyir Hacıbəyov özü də xalqımızı, ordumuzu mübarizəyə və qələbəyə səsləyən çoxlu əsərlər yaratmışdır. "Şəfqət bacısı" mahnısından sonra "Çağırış", "Vətən ordusu", "Yaxşı yol", "Zəfər bizimdir", "Ananın oğluna nəsihəti", "Döyüşçülər marşı", "Cəbhəyə", "Cəngi" və s. mahnı və marşlar, eləcə də solist, xor və simfonik orkestr üçün "Vətən və cəbhə kantatası", "Qələbə himni" və s. yaratmışdır. Bunlardan əlavə dahi Nizami Gəncəvinin qəzəlləri əsasında ölməz "Sənsiz" və "Sevgili canan" romansları, Azərbaycan Respublikasının himni də müharibə dövrünün məhsullarıdır. Bu mahnı və marşları əsgərlər cəbhədə təlim vaxtı, sıralarda, səngərlərdə oxuyardılar. 1944-cü ildə SSRİ Xalq Müdafiə Komissarıatı tərəfindən buraxılmış "Qızıl əsgər nəğmələri" kitabçasına Ü.Hacıbəyovun döyüş nəğmələri daxil edilmişdir.

1941-1945-ci illərdə Üzeyir Hacıbəyovun bilavasitə rəhbərliyi altında ön və arxa cəbhədə 12 mindən yuxarı hərbi-hamilik konsertləri təşkil edilmişdir.



Müharibə dövründə Azərbaycan Radio Verilişləri komitəsində konsert nömrələrinin əksəriyyəti Üzeyir Hacıbəyovun nəzarətindən sonra efirə verilirdi.

Müharibəyə baxmarayaq incəsənətin bütün sahələrinə ciddi diqqət yetirilirdi.

7 sentyabr 1942-ci ildə Azərbaycan hökumətinin göstərişi ilə Bakıda "Muğam və xalq havalarının ifası məsələlərindən bəhs edən müşavirə çağrılmışdır. Müşavirədə bəstəkarlar, şairlər, xanəndələr, ifaçılar, o cümlədən Bülbül, C.Qaryağdıoğlu, H.Sarabski, Niyazi, Ə.Bədəlbəyli, S.Rustəmov, S.Vurğun, M.S.Ordubadi iştirak etmişdilər. Müşavirə incəsənət işçiləri idarəsinin rəisi Mirzə İbrahimovun sədrliyi ilə keçmişdir. Əsas məruzəçi isə Üzeyir Hacıbəyov olmuşdur.

Məruzədə böyük bəstəkar muğamlarımız, onların düzgün oxunma qaydaları, muğamlara seçilən sözlər, xanəndə və sazəndə dəstələri tərəfindən xalq mahnılarının oxunması, ifaçının səhnə bacarığı və s. məsələlərdən bəhs edilmişdir.

Müşavirə ikinci Dünya müharibəsinin qızğın bir




dövründə keçirildiyi üçün Ü.Hacıbəyov hər bir konsert proqramı tərtib edərkən cəbhədəkiləri düşünməyi bu işlə məşğul olanlardan tələb edirdi. O göstərirdi ki, bugünkü günlə səsləşməyən mahnılardan, xüsusilə, belə mahnıların sözlərindən qaçmaq lazımdır. Bəzi xalq mahnılarının sözlərini dəyişib qəhrəmanlıq xarakterli sözlərlə əvəz etməyi məsləhət görürdü. Bəstəkar qeyd edirdi ki, qospitallarda bir çox yaralılar yatır. Odur ki, onların yanında "yaralıyam, dəymə, dəymə!" və s. oxumaq olmaz, çünki bu yaralıya pis təsir edər.

"Nə durmusan dağ başında qar kimi" və yaxud "Şirvanın yastı yolu, su gəldi basdı yolu" haqda iddia etmək olar ki, bu hava o sözlər üçün yazılmamışdır. Həmin sözlərin əvəzinə Qaçaq Nəbi haqqında qoşulmuş gözəl sözlər vardır, onları oxumaq olar, həm də qözəl bir hava itməz və belə bir havadan cəbhədə əsgərlər ilham alarlar".

Ü.Hacıbəyov radio konsertlərindən danışarkən onun işindəki, nöqsanları göstərmişdir: "Radio konserti bütün rayonlar üçün səslənir, odur ki, buraya daha artıq fikir verilməlidir,ələlxüsus müharibə vaxtında bütün fikrimiz düşməni məhv etmək olmalıdır. Bununla bərabər radio konsertləri nümunəvi olmalıdır. Hər çalan və oxuyan öz işinə məsuliyyətlə yanaşmalıdır".

Ağır müharibə illərində musiqi bir an da olsun susmurdu. Belə çətin vaxtda hətta ongünlüklər keçirilirdi. 1944-cü ildə Tbilisidə Zaqafqaziya Respublikalarının musiqi dekadası keçirildi. Dekadaya Azərbaycan bəstəkarlarının yaratdıqları 500-ə qədər hərbi-vətənpərvərlik mövzusunda mahnılar, oratoriyalar, xor əsərləri, kantatalar, bir pərdəli opera və 25 simfoniya kimi zəngin repertuar aparılmışdır.

Dekada zamanı Azərbaycan musiqi incəsənəti barədə mətbuatda dərc edilmiş məqalələr 1944-cü ildə Azərnəşr tərəfindən "Böyük Vətən müharibəsi günlərində Azərbaycan sovet musiqisi" adı altında ayrıca kitab şəklində nəşr edilmişdir. Kitaba yazdığı müqəddimədə Üzeyir Hacıbəyov dekadada Azərbaycandan olan istirakçıların yaradıçılıq uğurlarından bəhs etmişdir.

Ü.Hacıbəyovun özünün qazandığı uğurlardan isə "Bakinski raboçi" qəzeti 27 dekabr 1944-cü il tarixli nömrəsində belə yazırdı: "Ü.Hacıbəyovun "Vətən və cəbhə" adlı böyük kantatasından bir parça təşkil edən patetik və həyacanlı "Yaralı əsgərin nağılı", xüsusi bir müvəffəqiyyət qazandı. Xalq musiqisinin mahir ustadı olan Üzeyir Hacıbəyovun müharibə zamanında yaratdığı bir sıra başqa əsərlər də birinci konsertdə nümayiş etdirildi. Xüsusilə, Nizaminin 800 illik yubileyinə ithaf edilmiş və xalq artisti H.Hacıbababəyov tərəfindən yaxşı ifa olunan "Sevgili Canan" adlı musiqi-qəzəli dinləyicilərin böyük rəğbətini qazanmışdır".

Üzeyir Hacıbəyov müharibə dövründə təşkilatçılıq işləri ilə məşğul olmaqla bərabər bəstəkarların yaşayış tərzi ilə də maraqlanırdı. Onların vəziyyətlərinin ağır olması Üzeyir bəyi çox narahat edirdi. Bəstəkarlara kömək etmək, onların əsərlərini satın almaq imkanları demək olar ki, yox dərəcəsində idi. Belə bir zamanda, 1943-cü ildə qayğıkeş rəhbər olan Ü.Hacıbəyov bəstəkarların ağır, acınacaqlı qüzəranları, ehtiyacları barədə Mərkəzi Komitənin katibi Mir Cəfər Bağırova məlumat vermişdir. Görüşdə M.C.Bağırov Üzeyir bəyə demişdir: "Bəstəkarların əsərlərinin alınması üçün neft fondundan biz sizə yarım milyon ayırırıq. Bu qədər bəs edərmi?"

Üzeyir bəy də öz növbəsində M.C.Bağırova təşəkkür edərək bildirmişdir ki, "bəli, bu, bəstəkarlara xeyli kömək olacaq".

MK-dan qayıtdıqdan sonra hansı bəstəkarın nəyə qadir olduğunu gözəl bilən Ü.Hacıbəyov onların adlarını opera, simfoniya, oratoriya, kantata, mahnı və marşlar üzrə sıralayaraq verilən vəsaiti bəstəkarlar arasında







bölmüşdür. Öz adını isə bu siyahıya salmamışdır. Üzeyir bəy belə böyük ürək, əvəzolunmaz qəlb sahibi idi.

Müharibə dövründə Üzeyir Hacıbəyov ön cəbhəni də yaddan çıxarmırdı. Cəbhəyə tank hissələrinə yardım üçün öz şəxsi pulundan 100 min manat göndərmişdir. Bununla bağlı 11 mart 1943-cü ildə Baş komandan İ.V.Stalin tərəfindən təşəkkür teleqramı almışdır. Bu teleqram bu gün Üzeyir Hacıbəyovun ev-muzeyində saxlanılır.

İkinci Dünya müharibəsi bizim Azərbaycan torpaqlarında qetməsə də xalqımız həmin müharibəyə səfərbər olunmuşdu. Respublikamız hərbi vəziyyət şəraitində yaşayırdı. Ön cəbhəyə, döyüşlərə minlərlə oğul və qızlarımız gedirdi. Onlardan çoxu döyüşlərdə həlak olmuş, bir çoxu da itkin düşmüşdür. Demək olar ki, hər iki ailədən biri bu müharibədə əzizlərini itirmişdir.

Bu qün də müstəqil Azərbaycanımız müharibə şəraitində yaşayır. 10 ildən artıqdır ki, əzəli və əbədi düşmənlərimiz ermənilər tərəfindən müharibəyə düçar olmuşuq. Müharibədə nə qədər qeyrətli oğul və qızlarımızı itirmişik. Nə qədər torpağımız düşmən tapdağı altındadır. Natəvanın, Üzeyir bəyin, Bülbülün və başqa sənətkarlarımızın ruhları nigarandır, gözləri yoldadır. Xalqımız Qarabağ həsrəti ilə yaşayır.

Bu il biz faşıst Almaniyası üzərində qələbənin 60 illiyini qeyd edirik. Bu qələbədə Azərbaycan incəsənət işçilərinin də xüsusi payı vardır.

Ümumiyyətlə, hər bir müharibə xalqların ağrılı-acılı, yaralı tarixidir. Bu ağrıları sənət adamları daha çox yaşayır, üstəlik xalqı yaşamağa, bu çətin sınaqdan çıxmağa da ruhlandırırlar. Tarix göstərir ki, əldə silah vətəni yağılardan qorumaqdan şərəfli heç nə yoxdur. Dünyaşöhrətli bəstəkar, publisist, dramaturq, mütəfəkkir alim, pedaqoq, tərcüməçi, içtimai xadim, akademik Üzeyir Hacıbəyovun İkinci Dünya müharibəsindəki fəaliyyəti buna parlaq nümunədir.

**Səadət Qarabağlı**